

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 191 (21.092)

7 oktyabr 2014-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Oktyabrın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gürcüstanın Acarıstan Muxtar Respublikası Ali Sovetinin Sədri Avtandil Beridze ilə görüşmüşdür.

Qonağı səmimiyyətlə salamlayan Ali Məclisin Sədri Gürcüstanın Acarıstan Muxtar Respublikasına səfərini və keçirilən görüşləri xatırlamış, belə səfərlərin münasibətlərin inkişafı üçün əhəmiyyətli olduğunu bildirmişdir. Ali Məclisin Sədri hər iki muxtar respublika arasında səhiyyə və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsini qarşılıqlı münasibətlərin nəticəsi kimi dəyərləndirmiş, əlaqələrin gələcək inkişafı üçün yaxşı potensialın olduğunu vurğulamışdır.

Acarıstan Muxtar Respublikası Ali Sovetinin Sədri Avtandil Beridze Ali Məclisin Sədrini müqəddəs Qurban bayramı münasibətilə təbrik etmiş, bu il acarıstanlı uşaqların Duzdağ Fizioterapiya Mərkəzində müalicəsinin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirmişdir. Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasındakı münasibətlərin tarixinə toxunan qonaq dostluq və qarşılıqlı əməkdaşlıq səviyyəsində inkişaf edən əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir.

Görüşdə əməkdaşlığın inkişafında qarşılıqlı marağın əhəmiyyəti qeyd olunmuş, münasibətlərin perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Beynəlxalq Humanitar Forumun iştirakçıları Naxçıvandan zəngin təəssüratlarla ayrılıblar

***Dördüncü Bakı Beynəlxalq Humanitar Forumun iştirakçılarının bir qrupu oktyabrın 4-5-də Naxçıvan Muxtar Respublikasında səfərdə olub.***

Dünyanın müxtəlif ölkələrini, beynəlxalq təşkilatları təmsil edən tanınmış ictimai-siyasi xadimlərdən, elm adamlarından ibarət nümayəndə heyəti Naxçıvan Beynəlxalq Hava Limanında böyük qonaqpərvərliklə qarşılandı.

Qonaqlar qədim diyarın tarixi-memarlıq abidələri, muzeyləri, gəzməli-görməli yerləri ilə tanış oldular.

Əvvəlcə Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyinə gələn forum iştirakçıları burada ümummilli liderin həyatının müxtəlif dövrlərini əks etdirən stendlərə, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid şəxsi sənəd və materiallara, məktublara, Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətlərinə, ulu öndərə məxsus şəxsi əşyalara maraqla baxdılar. Qeyd olundu ki, ümumilikdə, muzeydə 4 min 536 eksponat var. Muzeyin kitabxanasında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən qəzet, jurnal, albom və kitablar, videomateriallar toplanıb.

Fondunda 3 min 537 maddi-mədəniyyət nümunəsi olan Naxçıvan Dövlət Xalça Muzeyi də qonaqlarda xoş təəssürat yaratdı. Bildirildi ki, həmin maddi-mədəniyyət nümunələrinin 331-i xalçadır. Ekspozisiyada isə 283 eksponat nümayiş etdirilir. Muzeydəki eksponatlar müxtəlif xalçaçılıq məktəbləri üzrə qruplaşdırılıb. Ekspozisiyada müxtəlif dövrlərə aid nəfis və zərif naxışlarla bəzədilmiş xalçalar nümayiş etdirilir. Burada xovlu xalçalar, məfrəş, palaz, cecim, kilim, sumax, keçə, həsir, süjetli və digər xalça növləri vardır. Xalçalardakı həndəsi və nəbati formalı naxışlar uzaq keçmişdən xəbər verən milli mədəniyyətimizin tarixini səciyyələndirir.

Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında yerləşən Açıq Səma Altında Muzey qonaqların böyük marağına səbəb oldu. Naxçıvan Muxtar Respublikasının ərazisindən tapılan müxtəlif dövrlərə aid 450 maddi-mədəniyyət nümunəsi – daşdan düzəldilmiş qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr onların diqqətini xüsusi olaraq cəlb etdi.



Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan Möminə xatın türbəsi ilə tanışlıq forumun iştirakçılarında qədim Naxçıvanın tarixinə böyük maraq yaratdı. Bildirildi ki, bu möhtəşəm abidə 1186-cı ildə tikilib. Həmin dövrdə Azərbaycanın Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz həyat yoldaşı Möminə xatının məzarı üzərində məqbərə yaradılmasına qərar verib və məqbərə Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən tikilib. Xalqın yaddaşında zaman-zaman "Atabəy günbəzi" adı ilə də qalan abidənin baş tağında kufi xətti ilə bu sözlər yazılıb: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar". Türbə yeraltı, yəni sərdabə və yerüstü hissələrdən ibarətdir.

"Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi ilə tanışlıq qonaqların diqqətini Naxçıvanın siyasi tarixinə cəlb etdi. Qeyd olundu ki, bu muzey Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il oktyabrın 23-də imzaladığı Sərəncam ilə yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə 900-dən artıq eksponat var. Bu eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi də nümayiş etdirilir.

Heydər Əliyev Sarayında yaradılan şəraitlə tanış olan forum iştirakçıları "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində də oldular. Muxtar respublikanın ərazisində aşkarlanan tarixi əşyalar haqqında onlara ətraflı məlumat verildi. Bildirildi ki, eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-III minilliyə aid müxtəlif məişət əşyaları, Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar qiymətli eksponatlardır. Naxçıvanın 5 minillik şəhər mədəniyyəti qonaqlarda böyük maraq doğurdu. Buradakı Nuh Peyğəmbərin türbəsi də dahilər yurdunun qədim tarixindən xəbər verir.



Naxçıvanın zəngin, qədim tarixi ilə bağlı 48 mindən çox eksponatın qorunub saxlandığı Naxçıvan Dövlət Tarix Muzeyi də qonaqlarda dərin təəssürat yaratdı. Burada diqqətə çatdırıldı ki, ekspozisiya, əsasən, qədim, orta əsrlər, yeni və müasir dövrü əhatə edir. Muzey 10 şöbədən ibarətdir. Burada müxtəlif çeşidli əmək alətləri, Paleolit və Neolit dövrlərinin əşyaları, dən daşları, obsidiandan lövhələr, daş çəkiclər, sümük bizlər, Naxçıvan Muxtar Respublikası ərazisində aşkar olunan mis və gümüş pullar, orta əsrlərin məşhur memarlarından olmuş Əcəmi Əbubəkr oğlu Naxçıvaninin inşa etdiyi möhtəşəm Möminə xatın, Yusif Küseyir oğlu türbələrinə və başqa memarlıq abidələrinə dair şəkilli materiallar, dekorativ tətbiqi sənətə aid xalçaçılıq, zərgərlik, misgərlik, dulusçuluq və nəqqaşlıq nümunələri, xalq ustalarının gözəl əl işləri sərgilənir.

Ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə tikilmiş Hüseyn Cavid məqbərəsinə gələn forum iştirakçıları Azərbaycanın böyük şairi və dramaturqunun xatirəsini yad etdilər. Qonaqlara ulu öndər Heydər Əliyevin Hüseyn Cavidin nəşinin ölkəmizə gətirilməsi üçün göstərdiyi səylər barədə məlumat verildi, bu abidənin açılışının məhz görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən dahi dramaturqun 114 illiyinin qeyd olunduğu 1996-cı ildə baş tutduğu bildirildi.



Qonaqlar Duzdağ Fizioterapiya Mərkəzində də oldular. Qeyd edildi ki, mərkəz 1979-cu ildən 50 çarpayılıq xəstəxana kimi fəaliyyət göstərib. 2003-cü ildə xəstəxananın yeraltı şöbəsində ən müasir tələblərə uyğun olaraq yenidənqurma işləri aparılıb, yeraltı şöbə genişləndirilib, müasir avadanlıqlarla və ləvazimatlarla təmin olunub. Duzdağ Fizioterapiya Mərkəzinin müalicəvi təsirinin digər duz şaxtalarından üstünlüyü ondadır ki, şaxta horizontal yerləşdiyindən xəstələr yeraltı şöbəyə tez adaptasiya olunurlar.

Ordubad şəhərinə də gələrək buradakı tarixi-memarlıq abidələri, muzey və görməli yerlərlə tanış olan qonaqlar şəhərdəki möhtəşəm çinar ağaclarının altında adı dillər əzbəri olan Ordubad limonu və mürəbbələri ilə bəzədilmiş çay süfrəsinə qonaq oldular. Şəhərin ecazkar görünüşü və ətrafdakı əzəmətli dağlar onları heyran qoydu.

"Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksində qonaqlara məlumat verildi ki, ziyarətgahın adı "mağara sahibləri" mənasını verir. Müqəddəs "Quran-i-Kərim"də "Əl-Kəhf" surəsinin 9-27-ci ayələrində mağaraya sığınan 7 gəncin 300 ildən artıq yatmaqlarından, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir. Müqəddəs kitabda mövcud olan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapıb. Adıçəkilən mağaranın Kiçik Asiya və ya Fələstin ərazisində, hətta dünyanın digər ölkələrində olduğu güman edilib. Ancaq son dövrlərdə aparılan araşdırmalar da sübut edir ki, həmin müqəddəs məkan məhz Naxçıvandadır.

Əshabi-Kəhflə bağlı rəvayətləri maraqla dinləyən qonaqlar ziyarətgahı gəzərək parçalanan nəhəng dağı heyranlıqla seyr etdilər.

Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Filarmoniyası Kamera Orkestrinin ifasında konsert proqramı qonaqların sürəkli alqışları ilə qarşılandı.

Naxçıvan Dövlət Universiteti ilə də tanış olan Humanitar Forumun iştirakçıları oktyabrın 5-də Naxçıvandan zəngin təəssüratlarla ayrıldılar.

**Xəbərlər şöbəsi**

# Naxçıvanda Qurban bayramı qeyd olunmuşdur

***Müqəddəs Qurban bayramı əsrlər boyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına xidmət etmişdir. Bu bayram Tanrının öz bəndələrinə lütf və mərhəmətinin ifadəsidir.***

“Qurban” sözü “yaxınlaşmaq” deməkdir. Yəni qurban kəsən hər bir kəs bu əməli ilə Allaha yaxınlaşır. Allah dərgahında kəsilən qurbanlar ruhi dəyərlərin paklanmasında, insanların xeyirxah əməllər ətrafında birləşməsində mühüm rol oynayır.

Qurban İslam aləmində ən dəyərli bayramlardan biridir. Bu bayram eyni zamanda müsəlmanların Həcc ziyarəti mərasiminin də bir hissəsidir.

Qurban bayramı müsəlman təqviminin (Hicri-qəməri təqvimi) 12-ci ayı olan Zilhiccə ayının 10-cu günü, Məkkəyə Həcc ziyarəti dövründə qurbanlıq heyvanların kəsilməsi şəklində qeyd olunur.

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçasıdır və tarixən İslam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş etmişdir. Digər müsəlman ölkələri kimi, Azərbaycanda da İslam dinindən irəli gələn





vəzifələr yerinə yetirilir. Hər il yüzlərlə azərbaycanlı zəvvarın Həcc ziyarətinə yola düşməsi və bu ziyarətin vacib əməllərindən hesab olunan qurban kəsilməsinə əməl etməsi xalqımızın İslam dininə bağlılığını nümayiş etdirir.

Milli-mənəvi, islami dəyərlərin qorunması və təbliğinə ciddi diqqət yetirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev insanlar arasında həmrəyliyin və saflaşmanın bərpa olunmasında bu bayramın rolunu yüksək qiymətləndirmiş, Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrikində demişdir: ***“Xeyirxahlığın, bərabərliyin, fədakarlığın simvolu olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə sülhə, əmin-amanlığa və dözümlülüyə dəvət edir. Cəmiyyətimizdə humanizm və qardaşlıq duyğularını daha da gücləndirən qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və böyük təntənə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, bu xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır”.***

Qurban bayramı muxtar respublikamızda da hər il geniş qeyd edilir, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından qurbanlar kəsilərək paylanılır.

Oktyabrın 5-də muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində, eləcə də bütün rayonlarda bayram namazı qılınmış, Allahın adına qurbanlar kəsilmiş, xalqımızın və dövlətimizin əmin-amanlığı, firavanlığı üçün dualar oxunmuşdur.

Naxçıvan şəhərindəki Heydər, “Cümə”, “Pirqəmiş”, Kazım Qarabəkir Paşa məscidlərində bu bayram milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin ifadəsi kimi qeyd olunmuş, məscidlərdə qurban əti paylanılmışdır.

Müqəddəs bayram günündə xəstələr, ahıllar da yaddan çıxmamışdır. Naxçıvan Hərbi Hospitalında, Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri və Psixi Xəstəliklər dispanserlərində müalicə olunanlara, Naxçıvan şəhərinin müxtəlif məhəllələrində yaşayan tənha ahıllara da qurban əti paylanılmışdır.

Naxçıvan Dövlət Universitetinin yataqxanasında yaşayan tələbələr, Şahbuz şəhərindəki Ahıllar evinin sakinləri də unudulmamışdır.

Qurban bayramı əsl təntənəyə çevrilmiş, insanlara birlik, həmrəylik, şəfqət və xeyirxahlıq duyğuları aşılamışdır.

✍ **Muxtar MƏMMƏDOV**

# Blokadada yaşayan Naxçıvanın sürətli inkişafı əsl möcüzədir

## *Muxtar respublikada səfərdə olan IV Bakı Beynəlxalq Humanitar Forumun iştirakçıları bu fikirdədirlər*

***Bu günlərdə keçirilən IV Bakı Beynəlxalq Humanitar Forumun iştirakçılarından bir qrupu oktyabrın 4-ü və 5-i Naxçıvan Muxtar Respublikasında olub. Muxtar respublikanın müxtəlif tarixi məkanları, mədəniyyət, təhsil və səhiyyə müəssisələri ilə tanış olan forum iştirakçıları “Şərq qapısı” qəzetinin əməkdaşları ilə təəssüratlarını bölüşüblər.***

***Avtandil Beridze – Gürcüstanın Acarıstan Muxtar Respublikası Ali Sovetinin Sədri:***



– IV Bakı Beynəlxalq Humanitar Forumun iştirakçısı kimi Naxçıvanda da olmağımdan sevinc duyuram. Forum çox uğurlu keçdi və belə möhtəşəm tədbirlər Azərbaycanın şöhrətini daha da artırır. Bu forum dünyanın müxtəlif regionlarından olan insanları bir araya topladı. Forum çərçivəsində Naxçıvanda olmaq isə mənim üçün ikiqat əlamətdardır. Bu, mənim Naxçıvana ikinci səfərimdir. Əvvəlki səfərim zamanı biz burada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə ikitərəfli əlaqələrin daha da genişləndirilməsi məsələlərini müzakirə etmişik. Xalqlarımızın dostluq əlaqələri çox genişdir və Naxçıvan-Acarıstan əlaqələri hələ keçən əsrin 70-ci illərindən başlayıb. Hesab edirəm ki, biz bu ənənələri daha da irəliyə aparmalıyıq. Bunun üçün yaxşı imkanlar vardır. Hazırkı mərhələdə iqtisadi və humanitar sahədə mühüm nailiyyətlərimiz, qarşılıqlı tələbə mübadiləmiz, turizm əlaqələrimiz vardır. Bu il çoxlu sayda naxçıvanlının Acarıstana dincəlməyə gəldiyini qeyd edə bilərəm. Sizin də gözəl müalicə-istirahət mərkəzləriniz vardır. Naxçıvana müalicə üçün gəlmiş acarıstanlı uşaqlar buradakı şəraiti çox bəyənirlər. Biz belə humanitar əlaqələri dəstəkləyirik. Düşünürəm ki, bütün bunlar, ümumilikdə, əlaqələrimizin inkişafına xidmət edən amillərdir.

***Aureliya Qriqoriu – Moldovanın ombudsmanı:***



– Öncə bütün naxçıvanlıları Qurban bayramı münasibətilə ürəkdən təbrik etmək istərdim. Hər birinizə sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram, həyatda hər şey ürəyinizcə olsun. Naxçıvan hər zaman bugünkü kimi çiçəklənsin, gözəl olsun, inkişaf etsin, yüksəlsin.

Naxçıvan gözəldir və bura gəlməyimə çox sevindim. Muxtar respublikanın möhtəşəm təbiəti, təmiz havası, saf suyu, gözəl insanları var. Mən bir daha insan amilinə diqqət çəkmək istəyirəm və deməliyəm ki, Naxçıvanın mehriban, səviyyəli insanları bu yurdun ən böyük sərvətidir. Tarix boyu bura dahilər yurdu olub, çox böyük şəxsiyyətlər yetişdirib. Təbii ki, həmin dahilərin, elm, siyasət xadimlərinin fövqündə Azərbaycan xalqının ümummilli lideri, ölkənizi bəlalardan xilas edərək qüdrətləndirən Heydər Əliyev dayanır.

Mənim həmişəki arzum idi ki, dahi şəxsiyyət Heydər Əliyevin doğulub boya-başa çatdığı bu gözəl yurda gəlim. Vaxtilə Onun gəzdiyi, yaşadığı yerləri görüm, insanlarına güc verən əzəmətli dağları, bərəkətli torpaqları seyr edim. Sevinirəm ki, bu, mənə qismət oldu. Gözəllikləri gördüm və başdan-başa abad, təmiz, çiçəklər içərisində, yaşıllıqlarla əhatə olunan, gözəlləşən Naxçıvanı gördüm və bu torpağın mehriban, qonaqpərvər insanlarına heyran qaldım.

Mən bütün naxçıvanlılara, azərbaycanlılara xoş diləklərimi, arzularımı çatdırmaq istəyirəm. İnanıram ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi özünün ədalətli həllini tapacaq, Azərbaycanın zəbt edilmiş torpaqları işğaldan azad ediləcək, Azərbaycan torpağı olan Qarabağ yenidən ölkənizə qaytarılacaqdır və bütün bunların fonunda Naxçıvan Muxtar Respublikası da ağır blokada şəraitindən xilas olacaqdır.

Yeri gəlmişkən, 23 il blokadada yaşayan bir diyarın bu şəkildə sürətlə inkişaf etməsi şəxsən mənim üçün möcüzədir. Naxçıvan, naxçıvanlılar buna nail olublar. Gözəl infrastruktur yaradılıb, möhtəşəm, gözoxşayan binalar tikilibdir. Bütün bunlara baxdıqca insanların əzmkarlığına, Vətən sevgisinə heyran qalırsan. Deməli, dahi rəhbər Heydər Əliyevin yolu Onun vətənində çox uğurla davam etdirilir.

***Yefim Pivovar –Rusiya Dövlət Humanitar Universitetinin rektoru, tarix elmləri doktoru:***



– Mənim Naxçıvana ilk səfərimdir. Muxtar respublikaya gələnə qədər Azərbaycanın bu bölgəsi haqqında yalnız qiyabi təsəvvürüm var idi. Artıq iki gündür, buradayıq. Çox zəngin təəssüratla geri qayıdıram. Şəhərlə ilk tanışlıq oldu, Ordubada, Əshabi-Kəhf ziyarətgahına səfər etdik – bütün gözəllikləri ilə əsrarəngiz bir diyardır Naxçıvan. Naxçıvanda tarixiliyin və müasir inkişafın vəhdət təşkil etdiyi qənaətindəyəm. Naxçıvanın dövrümüzün böyük siyasətçisi Heydər Əliyevin ana vətəni olduğunu da bilirdim. Dünən Onun abidəsini və adını daşıdığı muzeyi ziyarət etdik. Möhtəşəm idi! Müasir Azərbaycan dövlətinin qurucusu kimi O böyük şəxsiyyətə sonsuz hörmətim var. Bugünkü çiçəklənən Azərbaycan, Naxçıvan Muxtar Respublikası məhz Onun əsəridir.

***Piter Teys – ABŞ-ın Marquette Universitetinin beynəlxalq əlaqələr üzrə eksperti:***



– Mən çox şadam ki, Naxçıvana gələrək bu gözəl, qədim tarixə malik yerlərlə tanış ola bildim. Naxçıvan həm də geostrateji baxımdan Azərbaycan üçün, ümumilikdə, region üçün əhəmiyyətli bir məkandır. Bu mənada belə əhəmiyyətli bir bölgəni görmək mənə sevinc bəxş etdi.

Naxçıvan Azərbaycan xalqının ümummilli lideri olan Heydər Əliyevin doğulub boya-başa çatdığı Vətəndir. Təkcə bu amil onun əhəmiyyətini xeyli artırır.

Təbii ki, məni muxtar respublikanın tarixiliyi, abadlığı ilə birlikdə, elmi potensialı, buradakı elm ocaqları da maraqlandırır. Naxçıvan Dövlət Universiteti ilə tanış olarkən gördüm ki, təhsil ocağı üçün çox modern binalar tikilib və təhsil çox yüksək səviyyədədir.

Ümumiyyətlə, təkcə universitet deyil, bütün Naxçıvan Muxtar Respublikasının ərazisində yüksək səviyyədə infrastruktur quruluduğunun şahidi oldum.

İnsanlarınız çox qonaqpərvər, istiqanlıdırlar. Yeməklərinizə isə söz ola bilməz; düşünürəm ki, bu qədər dadlı yeməkləri ancaq Naxçıvanda yemək mümkündür. Sizin kimi dostlarla tanış olmaq isə mənim üçün hər şeydən daha önəmlidir. Çünki siz naxçıvanlılar çox geniş dünyagörüşə və humanist, insanpərvər fikirlərə sahibsiniz. Ona görə də istərdim ki, Naxçıvana bir daha gəlim, bu gözəl yurdu yenidən başdan-başa gəzim.

***Hüseyn Bağcı – Türkiyənin Ortadoğu Texniki Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müdiri:***



– Naxçıvana ilk dəfədir, gəlirəm. Doğrusu, muxtar respublikanın bu qədər inkişaf etdiyini bilmirdim. Əslində, dörd ildir ki, ardıcıl olaraq Azərbaycana gəlirəm. Ancaq Naxçıvana gəlmək istəsəm də, işlərin çoxluğu səbəbindən bu mümkün olmamışdı. Budəfəki səfərimdə Naxçıvana gəlməyim və muxtar respublikada nəhəng inkişafı görməyim məni çox sevindirdi. Sevinirəm ki, Azərbaycan müasir dünya düzəninə sürətlə inteqrasiya edir.

Naxçıvan elm və mədəniyyət baxımından da çox böyük inkişaf yolu keçib. Biz səfər müddətində bir daha bunun şahidi olduq. Naxçıvan Dövlət Musiqili Dram Teatrında Dövlət Filarmoniyasının orkestrinin solistlərinin iştirakı ilə keçirilən konsert proqramı muxtar respublikada mədəniyyətin, incəsənətin necə yüksək səviyyədə inkişaf etdiyini deməyə əsas verir.

Ordubadda olduq, bu rayon başdan-başa gözəlliklər diyarıdır. Tarixi, təbiəti məni valeh etdi. Həm orada, həm də Naxçıvan şəhərində olan sadə insanlarla səmimi söhbətlərdən insanlarınızın qonaqpərvərliyini, yüksək mədəniyyətini görmək çətin deyil. Təbii ki, eyni dilə, eyni dinə, eyni dəyərlərə sahib olmağımız da mehriban münasibətlərimizə çox böyük təsir göstərir.

Mən indiyədək iştirak etdiyim bütün beynəlxalq tədbirlərdə Azərbaycanın təcavüzə məruz qaldığını, Naxçıvan Muxtar Respublikasının Ermənistan tərəfindən blokadada saxlanıldığını daim yüksək səslə ifadə etmişəm və bunun çox böyük ədalətsizlik olduğunu dilə gətirmişəm. Bundan sonra da deyəcəyəm. Bunu da deyəcəyəm ki, Ermənistanın 23 ildir, blokadada saxladığı muxtar respublika çox sürətlə inkişaf edib, çiçəklənib. Qoy görsünlər ki, Naxçıvana qarşı atılan heç bir düşmən addımı onu inkişaf yolundan döndərə bilməyib.

***Tınçtıkbek Karımşakov – Qırğız Respublikasının “KABAR” Milli İnformasiya Agentliyinin direktor müavini :***



– İndiyədək Azərbaycanda üç dəfə olmuşam, ancaq Naxçıvana ilk səfərimdir. Təəssüratlarım çox böyükdür. Naxçıvan çox təmiz, gözəl, xalqınızın milli ənənələrini özündə əks etdirən bir şəhərdir. Bu, çox vacibdir, hiss olunur ki, şəhərin görüntüsündə yeniliklərlə bərabər, milli atributlara da mühüm yer verilib. İnsanlarınız çox qonaqpərvər, səmimi və ünsiyyətcildirlər. Biz Ordubadda da olduq. Bu səmimiyyəti orada da gördük. Bundan başqa, burada təşkilatçılıq çox yüksək səviyyədədir. Hiss olunur ki, hər kəs öz işini bilir və bunun öhdəsindən layiqincə gəlir.

***Bektemir Murzubraimov – Qırğız Respublikası Milli Elmlər Akademiyasının üzvü, Qırğız Xalq Assambleyasının sədri, akademik:***



– Naxçıvan haqqında təəssüratlarım çox böyükdür. Qısa olaraq deyə bilərəm ki, şəhəriniz kiçik olsa da, çox təmiz, gözəl, sakit bir şəhərdir. Bu da onu göstərir ki, buranın rəhbərliyi, eləcə də sakinlər öz yaşadıqları yerə çox bağlı insanlardır. Biz burada çox yerlərdə olduq. Heydər Əliyev Muzeyi, Xalça Muzeyi və Ordubad şəhərinin maraqlı yerləri ilə tanışlıq mənə çox xoş təsir bağışladı. Naxçıvan Dövlət Universitetində də olduq. Burada təhsil almaq üçün hərtərəfli şərait var. Mən özüm 15 ilə yaxın ali məktəbdə rektor işləmişəm. Təhsil prosesinin necə çətin bir iş olduğunu yaxşı bilirəm. Buna görə bu sahədə işləyənlərə uğurlar arzulayıram. Ümumilikdə isə bütün azərbaycanlılara, siz naxçıvanlılara daha böyük və inkişaf edən gələcək arzulayıram.

***Arye Qut – “İsrail-Azərbaycan” (AZİZ) Beynəlxalq Assosiasiyasının İdarə Heyətinin üzvü:***



– Mən indiyədək Naxçıvanda olmamışdım. Ancaq mənim atam, rejissor Əhməd Abdullayev 1974-cü ildə Naxçıvan Muxtar Respublikasının 50 illiyində Naxçıvan haqqında sənədli film çəkmişdi. Və o vaxt sovet Azərbaycanı dövründə bu, Naxçıvanın təbliği baxımından atılmış müsbət bir addım idi. Bura gələnə qədər Naxçıvanın inkişafı ilə bağlı məlumatlarım var idi, ancaq açığını deyim ki, bu qədər də gözləmirdim. Naxçıvan ümummilli lider Heydər Əliyev kimi dahi siyasətçini yetirən bir diyardır. Buna görə də forumdan sonra Naxçıvana gəlib bura ilə yaxından tanış olmaq arzum idi. Onu da qeyd edim ki, forum iştirakçılarının Naxçıvana səfəri mühüm əhəmiyyət daşıyır. Bu gün dünyanın Naxçıvan haqqında kifayət qədər məlumatı yoxdur. Məhz bura gələn forum iştirakçıları Naxçıvanı yaxından tanıdıqca qədim diyarın təbliği üçün də geniş imkanlar açılır. Naxçıvanın dünyada tanınması ona qarşı zaman-zaman yürüdülən əsassız iddialara da kəskin cavabdır. Buna görə də xaricdə fəaliyyət göstərən Azərbaycan diasporası ilə daim bu istiqamətdə fəaliyyət göstərməliyik.

✍ **Əli CABBAROV**
✍ **Səbuhi HƏSƏNOV**
✍ **Rauf ƏLİYEV**

# Sənaye parkları sənaye istehsalının müasirləşdirilməsində mühüm rol oynayır

*Ölkə iqtisadiyyatında getdikcə daha çox diqqət cəlb etməyə başlayan məsələlərdən biri də sənaye sferasında atılan addımlar və burada regionların potensialından daha geniş şəkildə istifadə olunmasıdır. Müasir dövrdə iqtisadiyyatın sənaye sektorunun inkişafında sənaye parklarının yaradılması böyük əhəmiyyət kəsb edir. Belə layihələr müxtəlif sənaye istiqamətlərinin paralel, eyni zamanda tarazlı inkişafını təmin edir, habelə istehsal sahələrinin və onların innovasiya istiqamətlərinin inkişafını nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına şərait yaradır.*

Xarici ölkələrin təcrübəsi göstərir ki, sənaye parklarının yaradılması ölkə iqtisadiyyatında ixracın, idxalı əvəz edən məhsulların istehsalının, məhsulların rəqabət qabiliyyətinin artırılması, məşğulluğun təmin edilməsi, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Buna görə də müxtəlif sənaye sahələrini inkişaf etdirmək istəyən, ölkə iqtisadiyyatının tarazlı inkişafında maraqlı olan dövlətlər iqtisadi siyasətlərində sənaye parklarının yaradılmasına üstünlük verirlər.

Sənaye parkı sənaye sahələrini inkişaf etdirmək üçün ayrılan torpaq sahəsi olaraq nəzərdə tutulur. Sənaye parklarının üç əsas sahibkarlıq modeli var: dövlət sənaye parkı və onu idarə edən orqan, özəl sektorun mülkiyyətində və idarəsində olan sənaye parkı, dövlətlə özəl sektor arasında dövlət-özəl tərəfdaşlıqları və müştərək müəssisələr.

Sənaye parkları müxtəlif cür adlana bilər: sənaye torpaqları, şəhərciyi, ixrac-emal zonaları, biznes parkları, texnologiya parkları, sənaye inkişaf zonaları, eko-sənaye parkları və sair.

Sənaye parkları, adətən, rabitə və nəqliyyat infrastrukturuna malik, kommunikasiya xətləri ilə təmin edilmiş ərazilərdə yerləşir. Digər hallarda isə bu imkanlar əvvəlcədən yaradılır. Həmçinin həmin zonalar işçi qüvvələri ehtiyatına malik olmalıdır.

Sənaye parkında yerləşən biznes müəssisəsinin kənarda yerləşən müəssisələrdən bir sıra üstünlükləri var. Belə ki, sənaye parkında müəssisə yaratmaq torpaq əldə etmək, onu hazır vəziyyətə gətirmək, kommunal xidmətlərdən istifadəyə icazə almaq, əraziyə yol çəkdirmək və digər vaxt aparan, əziyyət tələb edən işlərdən azad olmaq deməkdir. Sənaye parklarında biznes təşkilatları bu cür çətinliklər yaşamır. İlk növbədə, ona görə ki, sənaye parklarında biznesin təşkilində dövlət maraqlı olur. Həmçinin sənaye parklarında müxtəlif maddi (vergi, gömrük) güzəştlər tətbiq edilir.

Sənaye parkı ilə bağlı bəzi stimullaşdırıcı tədbirlərə gəlincə, bura vergi və gömrük sahəsində güzəştlər, sənaye parkının infrastruktura təmin edilməsi, torpaq sahəsinin icarə haqqının aşağı həddə nəzərdə tutulması, güzəştli kreditlərin verilməsi, inzibati prosedurların sadələşdirilməsi daxildir. Bundan başqa, sənaye parklarında sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili, istilik və elektrik enerjisinin, suyun və qazın satışına, tullantı sularının axıdılmasına və məişət tullantılarının yığılmasına görə güzəştli tariflərin tətbiqi də mümkündür.

Sənaye parklarının yaradılması və orada güzəştlərin tətbiq olunması ölkə iqtisadiyyatının şaxələnməsinə, müxtəlif sənaye sahələrinin inkişafına xidmət edir. Sənaye parkları, əsasən, böyük ənənələri və potensialı olan sahələrdə yaradılmalıdır. Ona görə də sənaye parkları daha çox hər bir regionun xammal bazasına uyğun olaraq təşkil edilməlidir. Məsələn, üzümçülük regionlarında şərab, dağətəyi rayonlarda isə konserv zavodları yaratmaq, faydalı qazıntılar olan bölgələrdə metallurgiya və tikinti materialları sənayesini inkişaf etdirmək mümkündür. Bu cür bölgü həm də iqtisadiyyatın balanslaşdırılmış inkişafını təmin edər. Yəni bir bölgədə böyük sənaye müəssisələri tikib, digərini boş saxlamaq regionlararası iqtisadi bərabərsizlik yaratmış olar.

Azərbaycanda bu işlərə bir neçə ildir ki, start verilmişdir. Ölkədə sənaye parkının (şəhərciyinin) yaradılması ilk dəfə ümummilli lider Heydər Əliyevin “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında” 2002-ci il 10 sentyabr tarixli Fərmanında müəyyən edilmişdir. Sənaye parkının yaradılması, həmçinin Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda və Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nda nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 24 aprel 2013-cü il tarixli Fərmanı ilə “Sənaye parkları haqqında Nümunəvi Əsasnamə”nin təsdiq edilməsi ilə ölkədə müxtəliftəyinatlı sənaye parklarının yaradılması istiqamətində tədbirlər həyata keçirilmişdir. Hazırda Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye Parkı, Pirallahı Yüksək Texnologiyalar Parkı yaradılmış, növbəti sənaye parklarının Gəncə və Mingəçevir şəhərlərində yaradılması istiqamətində isə iş aparılır.

Sənaye parklarının əhəmiyyətli cəhətlərini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikasında da sahibkarlığın dəstəklənməsinin bir yolu kimi sənaye parklarının yaradılmasına başlanılmışdır. Qeyd edək ki, bu sahədə artıq müvafiq qanunvericilik bazası yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş “Sənaye parkları haqqında Əsasnamə” sənaye parklarının yaradılması, idarə edilməsi və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyən çox mühüm dövlət sənədidir.

Sahibkarların həvəsləndirilməsi üçün stimullaşdırıcı tədbirləri də nəzərdə tutan əsasnaməyə görə, iş adamları və özəl şirkətlər sənaye parkında parkın operatoru ilə müqavilə bağlamaqla fəaliyyət göstərə bilərlər. Bunun üçün onlar parkda həyata keçirmək niyyətində olduqları investisiya layihəsi və başqa sənədlərlə idarəedici şirkətə müraciət etməlidirlər.

Qeyd edilən mühüm sənəddə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinə verilmiş tapşırıqların icrası ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir.

Sənaye parkının yaradılması uyğun hesab edilən, dövlət, xüsusi, həmçinin bələdiyyə mülkiyyətində olan torpaq sahələri haqqında təkliflərin hazırlanması istiqamətində işlər tamamlanmış və aşağıdakı layihələr hazırlanmışdır: sənaye parkının nizamnaməsinin layihəsi, sənaye parkı üzrə operatorun müsabiqə əsasında seçilməsi qaydasının layihəsi, sənaye parkının rezidentlərinin fəaliyyətləri haqqında hesabat-statistik məlumatların alınması və onların fəaliyyətinin monitorinqinin həyata keçirilməsi qaydalarının layihəsi, sənaye parkında həyata keçirilən fəaliyyət haqqında yarımillik hesabat, habelə öz fəaliyyətinin kənar auditor hesabatının hazırlanması və təqdim edilməsi qaydalarının layihəsi, hüquqi və fiziki şəxslərlə operatorun niyyət razılaşmasının nümunəvi formasının layihəsi, hüquqi və fiziki şəxslərin qeydiyyatdan keçmələri üçün ərizə forması və ona əlavə edilən sənədlərin siyahısının layihəsi, təqdim olunan investisiya layihəsinin müəyyən edilmiş meyarlara uyğunluğunun qiymətləndirilməsi qaydalarının layihəsi, sənaye parkının rezidentlərinin reyestrinin aparılması qaydalarının və qeydiyyat şəhadətnaməsinin formasının layihəsi, sənaye parkının ərazisində dövlət mülkiyyətində olan torpaq sahələrinin icarə müqaviləsinin nümunəvi formasının layihəsi, birgə sənaye parkının fəaliyyətinin təşkili və idarə olunması qaydalarının layihəsi.

Naxçıvan-Sədərək magistral avtomobil yolunun 12-ci kilometrliyində 50 hektar ərazidə və Babək rayonunun Araz kəndindəki 20 hektar ərazidə dövlət mülkiyyətinə aid olan torpaq sahələri sənaye parklarının yaradılması üçün təklif olunmuşdur.

Sənaye parklarının bir əhəmiyyəti də ondadır ki, burada istehsal olunan məhsullar kiçik və orta sahibkarlığın inkişafına zəmin yaradacaq, onlarla yeni istehsal sahələrinin yaradılmasına və inkişafına təkan verəcəkdir. Elə bu məqsədlə muxtar respublikamızda istehsal sahələri və infrastruktur nəzərə alınmaqla izolyasiya materialları, qiymətli metallardan hazırlanmış zərgərlik məmulatları, kafel, metlax və seramik məmulatları, elektrik akkumulyatorları, elektrik naqilləri, fərdi mənzillər üçün kombi, su, qaz və elektrik sayğacları, birdəfəlik tibbi şpris, qaynaq üçün elektrod, məişət avadanlıqları və elektronik cihazlar, məktəbli və ofis ləvazimatları, sumbata bezi (pas kağızı), divar kağızı (oboy), qələm istehsalı, istismar müddəti başa çatmış avtomobil şinlərinin utilizasiyası, şurup istehsalı, yivli metal qapaq, element, birdəfəlik plastik tara, dərman preparatları, kosmetik məqsədli yağ, ekstrat və preparatlar, balıq yemi, konservləşdirilmiş qarğıdalı, südlü uşaq yeməyi, meyvəli yoğurt, bitki yağı istehsalı sahələri və digər bu kimi 32 məhsul istehsalı üzrə layihələrin hazırlanması üçün təkliflər verilmişdir.

Xarici ölkələrin bu sahədəki müsbət təcrübəsinin öyrənilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, muxtar respublikanın nümayəndə heyəti Araz Azad Ticarət Zonası ilə tanışlıq məqsədilə İran İslam Respublikasına səfər etmiş, bu sahədə həmin ölkənin təcrübəsi ilə yaxından tanış olmuşdur. Həmçinin Çin Xalq Respublikasında “Azərbaycanda sənaye parkının tikintisi” mövzusunda keçirilmiş seminarda Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin əməkdaşı iştirak etmişdir. Təlim proqramı çərçivəsində Çin Xalq Respublikasının Kommersiya Nazirliyi yanında Məmurlar üçün Beynəlxalq Biznes Akademiyası ekspertlərinin tövsiyə və təcrübələri öyrənilmişdir.

*Əminliklə demək olar ki, qazanılmış təcrübələr sayəsində gələcəkdə sənaye parklarının timsalında iri sərmayə qoyuluşundan ibarət yeni layihələr reallaşdırılacaqdır.*

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti***

*Daxili bazarı yüksəkkeyfiyyətli yerli məhsullarla təmin edən müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən “Hilal” Ət-Süd Məhsulları Emalı Müəssisəsidir.*

Çeşiddə yerli ərzaq məhsulları ilə təmin etməklə yanaşı, əlavə iş yerlərinin açılmasına da imkan yaradır.

Xammalın qəbulundan tutmuş satışa çıxarılmasınadək bütün texnoloji proseslərə, texniki təhlükəsizlik və sanitar-gigiyenik qaydalara ciddi əməl edilir. Müəssisəyə daxil olan ət laboratoriyada analiz olunduqdan sonra istehsala buraxılır. Mənfi 20 dərəcəyədək dondurulmuş ət avtomatik üsulla tikələrə bölünüb üyüdülür. Reseptə uyğun olaraq hazırlanan qiymə və farş təbii bağırsağa və ya süni qlaflara doldurulub ayrı-ayrı hissələrə bölünərək sancaqlanır. Sonrakı mərhələdə termokamerada qurudulub bişirilir. Hazır məhsul laboratoriyada analizdən keçirildikdən sonra satışa çıxarılır. Xammal soyuducu anbarda mənfi 18 dərəcədə, hazır məhsul isə müsbət 8-10 dərəcədə xüsusi kameralarda saxlanılır.

## “Hilal” Ət-Süd Məhsulları Emalı Müəssisəsində yeni çeşidlərdə məhsul istehsalına başlanılıb

Sahibkar Fikrət Əliyarov bizimlə söhbətində qeyd etdi ki, 2000-ci ildə bina icarəyə götürülüb fəaliyyətə başlanılmış, müəssisənin keyfiyyətli ət-süd məhsulları ilə təmin olunması üçün yardımçı təsərrüfat yaradılmışdır. Lakin uyğunlaşdırılmış binada fəaliyyət göstərən müəssisədə yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi zərurəti yarandı. Digər sahibkarlar kimi, bu müəssisə də dövlət qayğısından bəhrələnmiş, 2009-cu ilin mart ayında müəssisə üçün torpaq sahəsi ayrılmışdır. Layihəyə uyğun olaraq, istehsal sahəsi, hazır məhsulların hisə verilməsi üçün sobalar, xammal və hazır məhsulların saxlanılması üçün soyuducu anbar, laboratoriya, iaşə xidməti göstərilməsi üçün yeməkxana və digər yardımçı otaqlardan ibarət yeni bina inşa olunmuş, 2010-cu ilin mart ayında istifadəyə verilmişdir. Müxtəlif çeşiddə daha keyfiyyətli ət məhsulları istehsal etmək məqsədilə müasir texnoloji avadanlıqların alınması üçün 2011-ci ilin fevral ayında Sahibkarlığa Kömək Fondundan 120 min manat güzəştli kredit ayrılmışdır. İspaniyanın “Fatosa”, Almaniyanın “Handtmann” və “POLY-Clip” firmalarından istehsal gücü saatda 3 ton olan avadanlıqlar alınıb quraşdırılmış, istehsal prosesi tam avtomatlaşdırılmışdır. İstehsal olunmuş məhsulların müəyyən olunmuş temperaturda ayrı-ayrı topdan və pərakəndə satış obyektlərinə vaxtında və keyfiyyətlə çatdırılması üçün soyuducu kamera ilə təmin edilmiş “Mercedes” markalı avtomobil alınmışdır.

Gələcəkdə yeni istehsal sahələrinin yaradılması nəzərdə tutulur. Təbii ki, yeni istehsal sahələrinin yaradılması daxili bazarı müxtəlif

Bütün göstəriciləri ilə seçilən yerli məhsul artıq xaricdən idxal olunan eyniadlı məhsulları bazardan sıxışdırıb çıxarır. Daxili bazarın tələbatı öyrənilməklə istehlakçılara müxtəlif çeşidlərdə məhsullar təqdim edən müəssisədə 0,5 kiloqramlıq qida üçün yararlı plastik taralarda yarımfabrikant məhsul və “Qəlyanaltı” adı ilə yeni əla növ sosiska istehsalına başlanılmışdır. Ümumilikdə, yüksəkkeyfiyyətli bişmiş, hisə verilmiş kolbasa, sosiska və sardelka istehsal edilərək “Hilal” əmtəə nişanı ilə satışa çıxarılır. Fəaliyyətə başladığı ilk illərdə 2-3 çeşiddə məhsul istehsal edilən müəssisədə hazırda 20-25 çeşiddə ət və süd məhsulları istehsal olunur. Nəfis tərtibatla bəzədilmiş, xüsusi paketlərdə ayrı-ayrı ticarət obyektlərində satışa çıxarılan məhsulların üzərində tərkibi, saxlanma şəraiti, istehsal tarixi və saxlanma müddəti göstərilir. İstehsal olunan məhsullar sifarişə uyğun olaraq, ölkəmizin paytaxtı Bakı şəhərinə də göndərilir, gələcəkdə Azərbaycanın digər regionlarında və xarici bazarlarda satışa çıxarılması planlaşdırılır.

## Qarışıq qüvvəli yemə olan tələbat yerli istehsal hesabına ödənilir

*“Gəmiqaya Holdinq” Şirkətlər İttifaqı tərəfindən yaradılan, heyvandarlıq və quşçuluğun inkişafında mühüm rol oynayan qarışıq qüvvəli yem istehsalı müəssisəsinin fəaliyyətə başlaması heyvandarlıq və quşçuluq təsərrüfatlarının inkişafında mühüm əhəmiyyət kəsb edir.*

Qarışıq qüvvəli yem istehsalı sahəsində Almaniya və Türkiyədən alınan, istehsal gücü saatda 3 ton olan müasir texnoloji avadanlıqlar və hər birinin tutumu 10 ton olan 4 ədəd bunker quraşdırılıb. Burada müxtəlif çeşiddə ətlik-südlük mal-qara və ətlik-yumurtalıq quş yemləri istehsalına başlanılıb. Lakin müəssisədə istehsal edilən qarışıq qüvvəli yem muxtar respublikamızda bu məhsula olan illik tələbatın 40 faizini ödəyirdi. Həmin məhsula olan tələbatın 100 faiz yerli istehsal hesabına ödənilməsi və yeni bir müəssisənin yaradılması üçün dövlət maliyyə dəstəyi ilə qısa zaman ərzində yeni müəssisə inşa olunub. İstehsal gücü saatda 10 ton olan müəssisədə Türkiyədən alınmış müasir texnoloji avadanlıqlar və hər birinin tutumu 20 ton xammal olan 9 bunker quraşdırılıb. Beləliklə, heyvandarlıq və quşçuluq təsərrüfatlarının səmərəli fəaliyyətinə şərait yaradılıb, bu sahədə məhsul istehsalı artımına nail olunub. Muxtar respublikada fəaliyyət göstərən heyvandarlıq və quşçuluq təsərrüfatlarının yeni müəssisədə istehsal edilən qüvvəli yemlə təmin olunması əlavə xərclərin qarşısını alıb.

Onu da qeyd edək ki, muxtar respublikada ətlik-südlük heyvandarlıq və ətlik-yumurtalıq quşçuluq təsərrüfatlarının illik qüvvəli yemə olan tələbatı 70 min tona yaxındır. Bunun 50 min tonu ətlik-südlük heyvandarlıq, 20 min tonu isə ətlik-yumurtalıq quşçuluq təsərrüfatlarının payına düşür. Bu müəssisənin istifadəyə verilməsi ilə qüvvəli yemə olan tələbat 100 faiz ödənilib, idxaldan asılılıq tamamilə aradan qaldırılıb. Hazırda müəssisənin xammala olan tələbatının bir qismi yerli istehsal hesabına ödənilir. Gələcəkdə xammala olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi təmin olunacaqdır.

İstehsal prosesi konveyer üsulu ilə təşkil edilən müəssisədə keyfiyyətli məhsul istehsalı həyata keçirilir. Qarışıq yem istehsalı sahəsində xammal kimi taxıl emalı müəssisəsində istehsal zamanı əldə olunan yarımfabrikantlardan da istifadə olunur. Ayrı-ayrı mərhələlərdən keçməklə hazırlanan 4 çeşiddə məhsul 50 kiloqramlıq kisələrdə “Bərəkət” əmtəə nişanı ilə satışa çıxarılır.

Yeni istehsal sahəsinin yaradılması keyfiyyətli məhsul istehsalı ilə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasına da əlverişli şərait yaradıb. Belə ki, müəssisədə 25 nəfər daimi işlə təmin olunub, işçilərə normal iş şəraiti yaradılıb.

**Kərəm HƏSƏNOV**

*Tarixi uzun minilliklərə dayanan, özülü olan hər bir xalqın, hər bir millətin özünəməxsus milli dəyərləri vardır. Bu milli dəyərlər xalqları, millətləri, toplumları digər xalqlardan fərqləndirən üstün keyfiyyətlərdir. Milli kökə və milli təmələ sahib olan Azərbaycan xalqının da milli dəyərləri kifayət qədərdir. Milli ideologiya, milli tarix, dil, mədəniyyət və incəsənət, ədəbiyyat, bir sözlə, milli olan bütün keyfiyyətlərimiz məhz milli dəyərlər sisteminə daxildir. Bu mənada xalqımızın milli dəyərləri haqqında ətraflı danışmaq olar. Milli dəyərlərimizin tərkib hissələrindən biri də milli mətbəximizdir. Ümummilli liderimiz Heydər Əliyevin təbirincə desək: "Azərbaycan qədim tarixə, mədəniyyətə, gözəl təbiətə, böyük iqtisadi potensiala və eyni zamanda rəngarəng, ecazkar mətbəxə malik ölkədir".*

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Kulinariyamız təbliğ olunur



Azərbaycan milli mətbəxinin tarixi də xalqımızın tarixi qədər qədimdir. Azərbaycan kulinariyası öz tarixi kökləri və özünəməxsusluğu ilə fərqlənir. Milli xörəklərimiz yüksək dad-tam keyfiyyətləri ilə dünyada məşhurdur. Onları başqaları ilə qarışıq salmaq olmaz. Azərbaycan xörəkləri dadı və hazırlanması, həmçinin tünd ədviyyə və tamlı əlavələr qatılmasına görə daha çox Şərq mətbəxinə yaxındır. Azərbaycan milli kulinariyası nəsildən nəslə keçərək təşəkkül tapmış və formalaşmışdır. Yeməklərin yüksəkkalorili, dadlı və gözəl xarici görünüşlü olması milli Azərbaycan mətbəxi üçün xarakterikdir. Azərbaycan mətbəxi dünyanın ən qədim, ən ləziz mətbəxlərindən biri sayılır. Azərbaycan mətbəxi dedikdə yalnız xörəklər, onların bişirilmə, hazırlanma qaydaları deyil, həm də mətbəx mədəniyyəti, onun tarixi, fəlsəfəsi, süfrə psixologiyası, adət-ənənələri, mətbəx fiziologiyası, gigiyenası və sair kimi cəhətləri, eləcə də təcrübi amilləri ahəngdar surətdə birləşdirən, Azərbaycan xalqının yaşadığı tarixi ərazi daxilində ətraf mühitlə tam bağlı olan mətbəx mədəniyyəti başa düşülür. Azərbaycanın bütün bölgələri kimi, Naxçıvan Muxtar Respublikasında da milli dəyərlərə xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 7 fevral 2009-cu il tarixdə "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Həmin sərəncamda milli dəyərlərimizin digər sahələri ilə yanaşı, milli mətbəxin öyrənilməsinə və təbliğinə xüsusi diqqət yetirmək əsas vəzifələrdən biri kimi qarşıya qoyulub. 9 aprel 2009-cu ildə isə muxtar respublika rəhbəri "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin yaradılması haqqında" Sərəncam imzalayıb. Mərkəzin yaradılmasında məqsəd xalq yaradıcılığının ən qədim sahələrindən biri olan kulinariya mədəniyyətinin sistemli şəkildə öyrənilməsi və inkişaf etdirilməsi, təbliği, tanıdılması olub. Bu yaxınlarda mərkəzin fəaliyyəti ilə yaxından tanış olmaq üçün həmin ünvanda olduq. Mərkəzin direktor əvəzi Zaur Əliyev bizimlə söhbət zamanı bildirdi ki, yaradılan gündən mərkəzin əməkdaşları muxtar respublikanın müxtəlif bölgələrinə səfərlər edib, unudulmaqda olan mətbəx nümunələri haqqında məlumatların toplanması və bərpası, təbliği, mətbəxlə bağlı folklor nümunələrinin əldə olunması ilə məşğul olublar, keçirilən ölkədaxili, həmçinin beynəlxalq forum və konfranslarda, festivallarda iştirak ediblər.

Müsahibim qeyd edir ki, mərkəzə göstərilən diqqət və qayğı sayəsində Naxçıvan mətbəxinin təbliğ olunması sahəsində bir sıra işlər görülüb. Mərkəzin nümayəndəsi 2010-cu ildə Çin Xalq Respublikasının Nançinq şəhərində YUNESKO-nun təşəbbüsü ilə keçirilən və 52 ölkənin iştirak etdiyi Dünya Xalq Yaradıcılığı Təşkilatının II Gənclər Forumunda "Naxçıvanın qurudulmuş meyvələrindən hazırlanmış şirniyyatlar", "Milli geyimlərin memarlıqda əksi" mövzularında məruzələrlə çıxış edib, slaydlar göstərib. Bundan əlavə, mərkəz beynəlxalq kulinariya festivallarında da muxtar respublikamızı təmsil edib. 2011-ci ildə təşkil etdiyimiz "Naxçıvan" komandası Türkiyədə keçirilən IX Beynəlxalq İstanbul Kulinariya Festivalında 20-yə yaxın ölkə ilə yarışdı, 4 gümüş medalla, 3 diplomla təltif olundu.

Zaur Əliyev qeyd etdi ki, Azərbaycan mətbəxi haqqında bir çox kitablar yazılıb. 2012-ci ildə nəşr olunmuş "Naxçıvan mətbəxi" kitabı isə bu sahədə ilk təşəbbüsdür. "Naxçıvan mətbəxi" adlı kitab Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamına əsasən hazırlanıb. Kitab 34 bölmədən ibarətdir. Kitabda regionumuzda qida kimi istifadə edilən yabanı və mədəni bitkilər, duru və quru xörəklər, içkilər, ədviyyatlar, şirniyyatlar, tədarüklər, habelə yerli əhalinin istifadə etdiyi qab və məişət əşyaları, mətbəxlə bağlı folklor nümunələri və sair haqqında məlumatlar yer alıb.

Həmsöhbətim onu da qeyd etdi ki, "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi bundan sonra da milli mətbəximizin təbliği, tədqiqi, unudulmaqda olan milli mətbəx nümunələrinin toplanması işini layiqincə davam etdirəcəkdir. Biz də milli dəyərlərimizin bir qolu olan kulinariyamızın təbliğində mərkəzin əməkdaşlarına müvəffəqiyyətlər arzulayıb oradan ayrılırıq. Yeri gəlmişkən onu da qeyd edək ki, muxtar respublikamızda turizmin inkişaf etdirilməsində milli mətbəximizin tanıdılması və təbliği işi mühüm əhəmiyyət kəsb edir. Bunun üçün əsasını təbii qidalar təşkil edən milli mətbəx nümunələrimizin sistemli və dolğun şəkildə tanıdılması üçün mövcud imkanlardan yetərincə yararlanmalıyıq. Bu həm də Naxçıvanımızın təbliği deməkdir.

Sona MİRZƏYEVA

## Naxçıvan Muxtar Respublikası üzrə 2014-cü ilin sentyabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 319844 | 31984 | 33280 | 104,1 |
| 2. | Culfa rayonu | 350731 | 35073 | 36383 | 103,7 |
| 3. | Naxçıvan şəhəri | 1031098 | 103110 | 105171 | 102,0 |
| 4. | Sədərək rayonu | 84855 | 8486 | 8616 | 101,5 |
| 5. | Şahbuz rayonu | 160769 | 16077 | 16313 | 101,5 |
| 6. | Kəngərli rayonu | 227912 | 22791 | 22984 | 100,8 |
| 7. | Şərur rayonu | 553550 | 55355 | 55506 | 100,3 |
| 8. | Babək rayonu | 383450 | 38345 | 38401 | 100,1 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 3476988 | 347635 | 410712 | 118,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **6589197** | **658856** | **727366** | **110,4** |

# Məhəmməd Tağı Sidqinin 160 illiyi münasibətilə tədbir keçirilib

Ordubad Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi ilə əlaqədar tədbir keçirilib. Tədbiri giriş sözü ilə rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Azər Əliyev açıb. Sonra Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktor əvəzi Esmira İsmayılova məruzə ilə çıxış edib. Qeyd olunub ki, M.T.Sidqi pedaqoji görüşlərində məktəbi "cəhalət dərdinin dərmanı", müəllimi isə "cəhalət bağının bağbanı" adlandırıb. Görkəmli maarif xadiminin poetik öyüdnamələrində də elm ilə dünyanın abad olunmasının mümkünlüyündən, dünya dillərini öyrənməyin faydalarından, kamil insan olmaq qayəsindən geniş bəhs edilir. Digər ədib və ziyalılarımız kimi, maarif fədaisi, şair Məhəmməd Tağı Sidqinin də fəaliyyəti, yaratdığı əsərlər dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onun ömür yolu və yaradıcılığı ətraflı öyrənilir. Qədim Naxçıvan torpağının yetirdiyi ziyalılar sırasında Məhəmməd Tağı Sidqinin xüsusi yeri vardır. Onun zəngin, çoxşaxəli yaradıcılığı, qaynar fəaliyyəti XIX əsrin ikinci yarısı və iyirminci yüzilliyin əvvəllərində Azərbaycanda maarifin, ədəbiyyatın, filoloji fikrin, mədəniyyətin inkişafında mühüm rol oynayıb. Elmi-pedaqoji dəyərə malik yeddi dərsliyin müəllifi olan görkəmli maarif xadimi ədəbi yaradıcılıqla da məşğul olub. Onun qələminin məhsulu olan uşaq nəsrinin ilk mükəmməl nümunələri, ədəbi-fəlsəfi traktat, poeziya və tərcümə materialları Azərbaycanda maarifçi ədəbiyyatın inkişafında mühüm rol oynayıb.

Sonda Ordubad Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin əməkdaşlarından Xuraman Yəhyayevanın və Anar Rəcəblinin məruzə ətrafında çıxışları olub.

Xəbərlər şöbəsi

# Federasiya Əlincəqalaya yürüş təşkil edəcək

*2013-cü ildə Naxçıvanda 2 yeni idman federasiyası – Atıcılıq, Hava və Ekstremal İdman Növləri federasiyaları yaradılmışdır.*

Artıq bir ildən çoxdur ki, hər iki federasiya fəaliyyət göstərir və bu idman növlərinin inkişafı üçün müəyyən işlər həyata keçirilir. Hava və Ekstremal idman növünə maraq ölkəmizdə son illər yaranıb. Ümumiyyətlə, Azərbaycanda bu federasiyanın əsası 2005-ci ildə qoyulub və əsas hədəfi Azərbaycanda hava və ekstremal idman növlərinin inkişaf etdirilməsidir. Federasiya yarandığı gündən etibarən Beynəlxalq İdman Dırmanması Federasiyasının üzvüdür.

Hava və Ekstremal İdman Növləri Federasiyası özündə ən çətin və ekstremal idman növlərini birləşdirir. Bu növləri seçənlər qar-buz uçqunları, sürüşmələr, çovğun, hündürlükdə oksigen çatışmazlığı, mənfi temperatur kimi əngəllərlə, həyati təhlükələrlə üzləşirlər. Bu idman növü özlüyündə müəyyən qruplara bölünür. Adından da göründüyü kimi, daha çox təhlükəni, ekstremi sevən bu sahə daha çox gəncləri özünə cəlb edir. Bu sahəyə hava (paraşüt, paraplan, motoparaplan, deltaplan, motodeltaplan), dağ (alpinizm, qayayadırmanma, buzadırmanma), su (dayvinq, skuter), texniki idman növləri (motosiklet yürüşləri, velosiped yürüşləri, kvadrasikl, qar kvadrasikl) və ekstremal turizm (piyada turizm, dağ turizmi, spelio turizm) daxildir.

Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyası yarandığı gündən bir çox tədbirlər həyata keçirib və gəncləri bu sahəyə cəlb etmək, onlarda bu idman növünə marağı artırmaq üçün müəyyən işlər görüb. Qurumun sədr müavini Azər Məmmədov bizimlə söhbətində, ilk olaraq, federasiyanın ötən il gördüyü işlərdən danışdı: "Federasiya yeni yaranmasına baxmayaraq, artıq bir çox tədbirlər, yarışlar təşkil edib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə birgə federasiyamız ilk tədbirini ötən il aprelin 20-də keçirdi. Daha sonra mayın 30-da ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş Əlincə qalasına yürüş oldu. Həmçinin ötən il daha 4 yarış təşkil etdik. Təbii ki, təşkil etdiyimiz yarışları Gənclər və İdman Nazirliyi ilə birgə həyata keçirdik".

Federasiyanın sədr müavini cari ilin ötən dövründə də mütəmadi olaraq bu cür yarışlar təşkil etdiklərini vurğuladı. O bildirdi ki, təşkil olunan yarışlar, əsasən, dağ və ekstremal növlərə aiddir. Çünki hava növlərində keçirilən yarışlarda iştirak etmək üçün ən az halda 6 ay paraşütdən tullanmaq üçün məşq etməlisən. Bunun üçün müəyyən qurumlarla danışıqlarımız olub və qarşıdakı aylarda hava idman növlərinin də yarışları təşkil ediləcək. Yarışlar fərdi qaydada olduğu üçün idmançılardan, ilk olaraq, könüllü ərizə və sağlamlıqları haqqında arayış tələb olunur. Bir də onu qeyd edim ki, federasiyanın keçirdiyi turnirlərdə yalnız 16 yaşdan yuxarı idmançılar iştirak edirlər.

Azər Məmmədov bildirdi ki, idmançılar təkcə muxtar respublikada keçirilən yarışlarda deyil, ölkədaxili turnirlərdə də uğurla çıxış ediblər: "İdmançılarımız Quba şəhərində keçirilən yarışda layiqli mübarizə apardılar. Dağ idman növlərində Şahdağ silsiləsinin Heydər Əliyev zirvəsini (3751 metr) qət etmək bacarığını bizim iki idmançımız – Yadigar Məmmədov və Amin Babayev nümayiş etdirdi. 500 idmançının mübarizə apardığı sürətli dırmanmada A.Babayev 3-cü, Y.Məmmədov isə 9-cu yerə çıxdı. Onu da qeyd edim ki, komandaların yarışında Naxçıvan komandası turniri ikinci pillədə başa vurdu".

Hazırda Naxçıvan Muxtar Respublikasında bu idman növü ilə 170-dən çox idmançının məşğul olduğunu vurğulayan federasiyanın sədr müavini qarşıdakı yarışlar barədə də məlumat verdi: "Federasiyanın məqsədi bu idman sahəsini muxtar respublikada geniş yaymaqla yanaşı, həm də gənclərimizə tarixi abidələrimiz barədə məlumat verməkdir. Keçirdiyimiz yarışlarda Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları da iştirak edir və onlar yürüş keçirdiyimiz yerlərin tarixi haqda idmançılara ətraflı məlumatlar verirlər. Qarşıdakı yarışlara gəlincə, oktyabrın 18-də federasiya Gənclər və İdman Nazirliyi ilə birgə yarış keçirəcək və bu, Əlincəqalaya yürüş olacaq".

Ceyhun MƏMMƏDOV


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 848